# Ötən əsrin 60-cı illərində Azərbaycanda nəzəri pedaqogika

**Əlibala Zal oğlu Zalov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** alibala_zalov@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d. Y.A. Allahverdiyev

**Açar sözlər:** pedaqogika, mövzu, tənqid, tərbiyə, dərslik, nəsl, mənbə, tədqiqat
**Ключевые слова:** педагогика, предмет, критика, воспитание, учебник, поколение, источник, исследование
**Key words:** pedagogy, subject, criticism, upbringing, textbook, generation, source, research

1960-1980-ci illər pedaqoji təmayüllü nəslin nümayəndələri professor M.Ə. Muradxanovu yaxşı xatırlayır. O, özündən əvvəl akademik M.M. Mehdizadənin rəhbərliyi altında buraxılan iki hissəli "Pedaqogika" dərsliyini (1958-1959) özünün ümumi redaktorluğu ilə yenidən nəşr etdirdi (1964). Azərbaycan milli-nəzəri pedaqogikasının əsasını qoyan həmin dərsliklər uzun illər nəsillərin təhsilində mühüm rol oynadı. Haqqında danışdığımız "Pedaqogika" dərsliyi Azərbaycan pedaqoji təfəkkürünün formalaşmasında, yeni nəsli yeni pedaqoji nəfəslə silahlandırmaqla əvəzsiz bir vəsait idi.

Prof. M.Ə. Muradxanov əsasən özündən əvvəlki "Pedaqogika" nəşrlərinə diqqətlə və tənqidi yanaşaraq yeni qiymətli bir vəsait ortaya qoya bilmişdir. Dərslik pedaqogikanın mövzusu, vəzifələri və üsulları ilə başlanır. Burada pedaqogikanın tərifi, tərbiyənin, təhsilin, təlimin əvvəlkilərə nisbətən daha təkmil şərhi və s. öz əksini tapıb. Professor yazırdı: "Hazırda pedaqogika uşaqların tərbiyə, təhsil və təliminin məqsədi, məzmunu, qanunauyğunluqları və səmərəli yollarından bəhs edən elmə deyilir. Burada əks olunmuş tərbiyə, təhsil və təlimin pedaqogikanın əsas anlayışları olduğu aydın olur". Tərbiyənin tərifi zaman-zaman formalaşmadırılmış, yeniləşmişdir. Şübhəsiz, pedaqoqlar tərbiyəyə tərif verərkən onun əsas funksiyalarını əks etdirməyə çalışmışlar. Prof. M.Ə. Muradxanov tərbiyəyə iki cür yanaşma təklif edir: dar və geniş mənada. Geniş mənada tərbiyə- gənc nəslin fiziki və əqli qabiliyyətlərini inkişaf etdirmək, onları bilik, bacarıq və vərdişlərlə silahlandırmaq, müəyyən dünyagörüşünə, əxlaqi sifətlərə yiyələndirməkdən ötrü məqsədyönəlmiş, planlı və mütəşəkkil təsir hesab edilir. Dar mənada tərbiyə isə uşaqların fiziki, estetik və s. sahələrdə formalaşdırılması sayılır. Təhsil isə uşaqların bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi bu zəmin üzərində onlarda dünyagörüşünün yaranmasıdır. Və buradan belə nəticə çıxır ki, təlimdə təhsildir, lakin müəllimin rəhbərliyi altında, konkret şəraitdə təhsildir, yəni təhsilin yollarından biridir.

"Pedaqogika"da tərbiyənin meydana gəlməsi cəmiyyətin praktik tələbatı ilə əlaqələndirilir. Onun müxtəlif tarixi dövrlərdə formalaşması şərh edilir. Daha sonra pedaqogikanın bir elm kimi meydana çıxmasının tarixi şərtləri əsaslandırılır. Prof. Mərdan Muradxanov dövrün ideoloji təsirlərini nəzərə alaraq, bütöv sistem halında öyrənilməsi tələb olunan pedaqogikanı ayrıca sovet pedaqogikası  kimi təqdim eidr və onun mənbələrini göstərir. Dünyanın mütərəqqi və klassik pedaqoqlarına istinad isə prof. M. Muradxanov yaradıcılığında ənənəvidir (biz bundan sonra sovet pedaqogikası deyil, sadəcə pedaqogika termini işlədəcəyik). O, pedaqogikanın tədqiqat üsullarını-müşahidə, eksperiment, sənədlərin öyrənilməsi, yazılı ədəbiyyatın və

arxiv materiallarının öyrənilməsi, uşaqların yaradıcılıq fəaliyyəti məhsullarının öyrənilməsi kimi müəyyənləşdirilir. Pedaqoji elmlər sisteminin, pedaqogikanın başqa elmlərlə əlaqəsinin şərhində əvvəlki nəşrləri təkrar edən M.Muradxanov həm də tərbiyənin məqsədini şərh edərkən onu ictimai inkişafın obyektiv qanunauyğunluqları ilə əlaqələndirir. Qeyd edək ki, dərslikdə istəsə və istəməsə də tərbiyənin tərkib hissələrini belə göstərməli idi: əqli təhsil, politexnik və peşə təhsili, əxlaq tərbiyəsi, estetik tərbiyə, fiziki tərbiyə və s. Bunların vəzifələrinin şərhində isə o, hökmən kommunizm ideyalarına istinad etməli idi və edir. Tərbiyənin inkişafla əlaqəsi, uşaqların yaş xüsusiyyətləri, onların inkişafında irsiyyətin, mühitin və tərbiyənin rolu "Pedaqogika"da qırmızı xəttlə keçir. Burada qeyri-elmi nəzəriyyələr, ayrı-ayrılıqda irsiyyətin, mühitin və tərbiyənin rolunun ya həddindən artıq şişirdilməsi, ya da inkarı obyektiv olaraq tənqid olunur. Məsələn, məşhur Sədidən gətirilən bir misalda deyilir: "Heç seyqəl götürməz zatı pis dəmir. Nə qədər çalışsan, bəd gövhər olar".

Burada irsiyyət nəzəriyyəsinin yeri müəyyənləşdirir, yaxud məşhur rus mütəfəkkiri V.Q.Belinski uşağın inkişafında tərbiyənin böyük rol oynadığını qeyd etməklə bərabər, irsiyyəti tam inkar edən və tərbiyənin rolunu həddindən artıq şişirdənlərin fikirlərinin düzgün olmadığını göstərirdi. "Pedaqogika" da ondan gətirilən sitatda deyilir: "Körpənin ruhu, üzərində istənilən şeylər yazıla bilən ağ lövhə deyildir, o, elə bir toxumdur ki, ondan ağac ola bilər, elə bir imkandır ki, ondan adam ola bilər". XX əsrin 20-ci illərində sovet maarif sistemində pedaqogikanın özünə müəyyən yer tutması, önəm qazanması haqqında danışdığımız dərslikdə ciddi tənqid olunur. Etiraf edək ki, bu gün pedalogiya yenidən diqqəti cəlb etməkdədir. Uşaqların yaş xüsusiyyətlərinin şərhində klassik pedaqogikanın elmi nəzəriyyələrin nəticələrindən bəhrələnərək müəlliflər bu bölgünü belə aparır:

1. Məktəbəqədər dövr (1-7 yaşa qədər);
2. Məktəb dövrü (7-8 yaşa qədər).

Ayrı-ayrılıqda həm məktəbəqədər dövr, həm də məktəb dövrü müəyyən mərhələlərə ayrılır və hər yaş dövrünün xüsusiyyətləri şərh edilir. Uşaqları öyrənmək üçün müşahidə və müsahibə daha çox diqqətə çəkilir. Nəticədə onların pedaqoji xarakteristikasının tərtibi təklif olunur. Dərslikdə xalq maarifi sistemi, onun əsasları, quruluşu, inkişaf perspektivləri, dünya maarif sistemindən fərqləri tədqiqi və tənqidi şəkildə öz əksini tapıb. Prof. M.Muradxanovu tanıyanlar yaxşı bilirlər ki, o, nəzəriyyəçi pedaqoqdur. Onun təlim nəzəriyyəsi haqqında klassik pedaqogikadan gəlmə bir yanaşma özünü göstərir. O, dövrünün nəzəriyyəçi pedaqoqlarının yaradıcılığından bəhrələnərək didaktikanı (təlim nəzəriyyəsi) "Pedaqogika"nın oxucularına belə təqdim edirdi: "Pedaqogikanın təlim məsələlərindən bəhs edən hissəsinə təlim nəzəriyyəsi və ya didaktika (yunanca öyrədirəm deməkdir) deyilir". Təlimin mahiyyətindən bəhs edərkən uşaqların bilik, bacarıq və vərdişlərə yiyələnməsini mahiyyət olduğunu qeyd edən müəlliflər onun ikitərəfli fəaliyyət olduğunu unutmurlar. Biliyi təbiət, cəmiyyət və təfəkkürə aid faktlar, hadisələr, qaydalar, qanunlar və qanunauyğunluqlar sistemi hesab edirlər. Bacarığı isə biliyi tətbiq edə bilmək, vərdişi bacarıqların dönə-dönə təkrarının avtomatlaşmış forması hesab edirlər. Təlim prosesinin əsasən qavrama, anlama, möhkəmlətmə və tətbiq edə bilmə amillərindən ibarət olduğunu söyləməklə onun prinsiplərini (klassik pedaqogikadan gəlmə) müəyyənləşdirir və sistemləşdirirlər. Elə bu gündə tətbiq olunan və təcrübədə özünü təsdiq edən aşağıdakı təlim prinsipləri irəli sürülür:

1. təlimin əməklə, həyatla əlaqələndirilməsi;
2. təlimin tərbiyələndiriciliyi;
3. təlimdə əyanilik;
4. təlimdə şüurluluq və fəallılıq;

5. təlimdə sistematiklik;
6. biliklərin möhkəmləndirilməsi;
7. təlimdə müvafiqlik; 8. təlimdə fərdi yanaşma.

Göstərilən hər bir prinsip "Pedaqogika"da geniş şəkildə şərhini tapır. Təhsilin vəzifələri və məzmunu hər zaman ictimai bəşəriyyəti düşündürüb, şübhəsiz ki, ayrı-ayrı vaxtlarda təhsilin vəzifələri müxtəlif cür əsaslandırılıb. Pedaqogikada məktəb dərslikləri, tədris planı, dərs ilinin quruluşu, tədris proqramları, ayrı-ayrı fənlər öyrənilib və bu gün də diqqət mərkəzində olan bir məsələdir. 1964-cü ildə nəşr edilən "Pedaqogika"da təlimin üsulları prof. M.Muradxanov tərəfindən işlənib hazırlanmışdır. O, təlim üsullarına belə tərif verir: "Müəllimin şagirdləri bilik, bacarıq və vərdişlərlə silahlandırılması və şagirdlərin bunlara yiyələnməsi və vasitələrinə təlimin üsulları və ya metodları deyilir". "Pedaqogika"da müəyyən tələblərlə əsaslandırılan aşağıdakı təlim üsullarından bəhs edilir: müəllimin şərhi, müsahibə, illüstrasiya və demonstrasiya, laborator məşğələləri, praktik məşğələlər, çalışmalar, kitab üzərində iş və s. Təlimin bu üsulları şagirdlərin bilikləri hansı mənbələrdən almalarına görə müəyyən edilmişdir. Məlumdur ki, şagirdlər bilikləri əsasən dörd mənbədən alırlar. Bunlar: müəllimin sözü, fakt və hadisələrin müşahidə edilməsi, şagirdlərin özünün fəallığı və kitab.

Qeyd edək ki, müasir təlimdə əsas mənbə müəllimin sözü və şagird müşahidəsidir. Məlum həqiqətdir ki, müəllim sözü , müəllim şəxsiyyəti, müəllim məntiqi təyinedicidir.

Hər zaman görülən işin nəticəsinin yoxlanması, yaxud yoxlanma təhdidi müsbət nəticə verir və məsuliyyəti artırır. Bu mənada "Pedaqogika"da təlim müvəffəqiyyətinin hesaba alınması məsələsi həmişə vacib sayılan problemlərdən olub. Məktəb təcrübəsində, ümumiyyətlə, təhsildə də müvəffəqiyyətin qiymətləndirilməsinə həmişə müəyyən tələblər verilir. Burada nisbilik, ümumilik yolverilməzdir, antipedaqojidir, uşaq psixologiyasına mənfi təsir göstərən əsas amillərdən biridir. Müvəffəqiyyətin hesablanması zamanı fərdilik və müntəzəmlilik, kəmiyyət və keyfiyyət cəhətləri, düzgünlük, obyektivlik, ədalətlilik nəzərə alınmaqla, bunlar müəyyən sənədlərdə öz əksini tapmalıdır. Şagird müvəffəqiyyətini əsasən şifahi sorğu ilə, yoxlama yazı və qrafik işlərlə, ev yazı işlərinin yoxlanması ilə gündəlik müşahidə və s. ilə aparırlar. Təlim müvəffəqiyyətinin düzgün, obyektiv, ədalətli aparılması tərbiyəvi baxımdan çox əhəmiyyətlidir. Qiymətləndirmə zamanı şagird biliyin həcmi, biliyin dərk edilməsi, onu tətbiq edə bilmək, ifadə tərzi və s. diqqətdə olmalıdır. Şübhəsiz, adi qiymətləndirmədən fərqli olaraq, şagirdlərin yekun qiymətləndirilməsi imtahan vasitəsilə həyata keçirilir.

Prof. M.Muradxanov yaradıcılığında didaktika əsas yer tutmaqla, təlimin ayrı-ayrı məqamları, həyata keçirilmə yolları, üsul və vasitələri bir vəhdət təşkil edir. Bu baxımdan dövrümüzdə də aktual olan təlimin təşkilat formaları aktuallığını itirməmiş bir məsələdir. Təlimin təşkilat formalarına tarixi baxımdan yanaşdıqda məlum olur ki, müxtəlif tarixi dövrlərdə məktəbin inkişafı ilə əlaqədar olaraq pedaqoji nəzəriyyələrin təsiri ilə təlimin təşkili formaları da dəyişmiş, tənəzzül və yaxud tərəqqi etmişdir. Məktəbin inkişaf etmədiyi erkən dövrlərdə təlimin ilk pillələrində məktəblərdə təlim (əsasən dini təlim) fərdi məşğələ kimi təşkil olunurdu. Məktəbə qəbulun sabit vaxtı yox idi. Əsasən şagirdlər vahid yerdə, müxtəlif yaş tərkibində təlim alırdılar. Sonralar elmi pedaqogikanın yaranması (böyük çex pedaqoqu Yan Amos Komenski XVII əsrin əvvəllərində Şərqi Avropadakı qabaqcıl məktəblərin təcrübəsini ümumiləşdirərək "Böyük didaktika" əsərini yazdı – "Pedaqogika") məktəbə qəbulun vaxtının, yaşın, siniflərin ayrılmasına, bir sözlə, məktəb – sinif – dərs sisteminin yaranmasına səbəb oldu. Prof. M.Muradxanovun dərsə verdiyi tərif də diqqəti cəlb edir. O, yazır: "Dərs müəllimin rəhbərliyi altında möhkəm şagird heyəti olan siniflə, sabit cədvəl üzrə keçilən kollektiv məşğələyə deyilir". Yeri gəlmişkən qeyd edək ki, bu gün dərsin fərdi tipləri də meydana çıxıb.

Dərsə yalnız kollektiv məşğələ kimi düzgün deyil (Şübhəsiz, M.Muradxanov dövründə ya belə dərslər yox idi, ya da geniş yayılmamışdır – Ə.Z.). O, dərsi şərh edərkən onun əlamətlərini sadalayır. Dərs müəllimin rəhbərliyi altında keçirilir, dərs sinif şəraitində keçirilir (bu fikir də ziddiyyətlidir, biz məşhur sovet pedaqoqu Suxomlinskinin açıq səma altında keçirdiyi dərslər haqqında bilirik. – Ə.Z.), dərsdə məcburi məşğələ kimi bütün sinfin şagirdləri iştirak edir (Zənnimizcə, bu əlamət də özünü doğrultmur, çünki təcrübədə dərsdə iştirak etməyən sayca kifayət qədər şagird ola bilir. – Ə.Z.). Dərs sabit məşğələ cədvəli üzrə keçirilməlidir. Təlimin təşkilat formaları içərisində əsas üstünlüyü dərsə verən prof. M.Muradxanov öz növbəsində təlimin "Laborator-briqada üsulunu" və "Dalton-planı" tənqid etmiş, onların əsas qüsurlarını göstərməyə çalışmışdır. Dərsə verilən tələblərdən danışarkən prof. M.Muradxanov yazır ki, hər bir dərs məntiqi və psixoloji cəhətdən tam olmalıdır, dərsdə şagirdlərin fəallığı təmin olunmalıdır, dərsdə müxtəlif üsul və vasitələrdən istifadə etmək, dərsdə kollektiv işi fərdi işlə uzlaşdırmaq və dərsdə vaxtdan səmərəli istifadə etmək lazımdır.

Tədqiqatlar göstərir ki, dərslər daşıdığı əsas təhsil məqsədinə görə, yeni bilik öyrədən dərs təkrarlama dərsi, tətbiq etmək dərsi, yoxlama dərsi, çalışma dərsi kimi tiplərə ayrılır. Məqsədlərinə görə seçilən dərslər quruluşlarına görə də fərqləndirilir. Təcrübə göstərir ki, hər bir dərsin əsas təhsil məqsədi ilə yanaşı qeyri-əsas məqsədi də olur. Bu mənada hər bir dərs çoxməqsədli və ya mürəkkəb ola bilər.

Müəllimin dərsə hazırlığına yüksək tələbkarlıqla yanaşan prof. M.Muradxanov onun əsasən üç istiqamətdə olduğunu deyir: müəllimin ümumi hazırlığı, mövzular üzrə hazırlığı və növbəti dərs məşğələsinə hazırlığı. O, yazırdı ki, dərsin məqsədi və məzmununu aydınlaşdırdıqda sonra müəllim onun birinci dəqiqəsindən axırıncı (45-ci) dəqiqəsinədək quruluşunu, yəni mərhələlərini və hər bir mərhələdə tətbiq edəcəyi təlim üsullarını müəyyən etməlidir. Bu sonuncu çox vacibdir. Müəllim qabaqca bilməlidir ki, sorğunu hansı üsulla aparacaq və hansı şagirdlərdən soruşub qiymət yazacaq, yeni mövzunu keçmiş mövzularla necə əlaqələndirəcək, yeni biliyi nə kimi üsullarla şagirdlərə başa salacaq, nə vaxt hansı əyani vəsaiti, yeni keçilən mövzunu hansı üsulla möhkəmləndirəcək və s. Müəllim dərsin ayrı-ayrı mərhələlərində hamının fəallığını təmin etmək və dərsi maraqlı keçmək üzərində xüsusi düşünməklə bərabər, həm də ayrı-ayrı şagirdlərlə görüləcək fərdi işlər üzərində fikirləşməlidir.

**Məqalənin aktuallığı.** Elmi ədəbiyyatda ötən əsrin 60-cı illərində Azərbaycanda nəzəri pedaqogika məsələlərinin tədqiqinə az rast gəlinir. Məqalədə məhz bu mövzuya, xüsusən də həmin dövrün pedaqojiyönlü dərsliklərinin şərhinə həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ötən əsrin ikinci yarısında Azərbaycanda çap olunan "Pedaqogika" dərsliklərində tərbiyə məsələlərinin, təlim prinsiplərinin və s. təhlili verilir, rus pedaqoqlarının əsərlərindən nümunələr gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. M. Muradxanov və b. Pedaqogika. Bakı, 1959.
2. M. Muradxanov və b. Pedaqogika. Bakı, 1964.

**А.З. Залов**

## Теоретическая педагогика в Азербайджане в 60-х годах прошлого века

### Резюме

Исследование теоретических педагогических проблем в Азербайджане в 60-х годах XX века редко встречается в научной литературе. В статье также рассматривается эта тема, особенно учебники педагогической направленности того времени. В то же время в статье анализируются актуальные проблемы в учебниках по педагогике, изданных в Азербайджане во второй половине прошлого века, и приводятся примеры из работ российских педагогов.

**A.Z. Zalov**

## Theoretical pedagogy in Azerbaijan in the 60s of the last century

### Summary

The research of theoretical pedagogical issues in Azerbaijan in the 60s of the XX century is rarely found in scientific literature. The article also deals with this topic, especially the pedagogical orientation textbooks of that time. At the same time, the article analyzes current issues in the textbooks of pedagogy published in Azerbaijan in the second half of the last century, and provides examples from the works of Russian educators.

**Redaksiyaya daxil olub:** 20.11.2019